# Astara dinamik inkişaf yolunda

Təqzibedilməz həqiqətdir: rəhbər kadr ona tapşırılmış vəzifəni məsuliyyətlə yerinə yetirəndə, yüksək təşkilatçılıq bacarığı ilə seçiləndə, vətəndaşlarla sıx ünsiyyət yaradanda, onlara xüsusi diqqət və qayğı göstərəndə, problemlərinin həllinə çalışanda həmin rayonda sosial-iqtisadi inkişafın sürətlənməsi mütləq şəkildə təmin olunur. Respublikamızın Cənub zonasına səfərimiz zamanı bunu bir daha yəqin etdik



Mahir Quliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 8 sentyabr 2006-cı il tarixli sərəncamı ilə Astara Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunmuşdur.

O, icra başçısı kimi fəaliyyətə başladığı ilk gündən Astarada hərtərəfli inkişafın yeni mərhələsi başlanmışdır.

Rayonda tikinti, quruculuq, abadlıq və təmizlik işləri geniş vüsət almışdır. 77 saylı Dairə Seçki Komissiyası, DSMF rayon şöbəsi üçün yeni inzibati binalar, Heydər Əliyev Muzeyi, üç kənddə müasir tipli tibb məntəqəsi, uşaq əyləncə mərkəzi, 10-dan çox yeni məktəb binası, 7 Elektron ATS tikilib istifadəyə verilmiş, şəhər mərkəzində Heydər Əliyev parkı, yeni məkanda Şəhidlər xiyabanı salınmış, Heydər Əliyev prospektində yenidənqurma işləri aparılaraq zövq oxşayan hala salınmış, şəhərin küçələri - nə və kəndlərə gedən yollara asfalt döşənmişdir.

M. Quliyev rayonda aqrar bölmənin, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrinin inkişafını, vətəndaşların qəbulu, xüsusilə səyyar qəbulların keçirilməsini, ərizə və şikayətlərə baxılmasını daim diqqət mərkəzində saxlayır. Ötən illərin sosial-iqtisadi göstəricilərinə nəzər salarkən fərəhlənməyə bilmirsən. Bütün bunlar Mahir Quliyevin icra başçısı kimi fəaliyyətinin uğurlu olduğuna dəlalət edir.

Söhbət zamanı rayon rəhbəri 2009-cu ildə görülmüş işlər barədə danışdı. Cənab Mahir Quliyevin qeydlərini diqqətinizə veririk.

- 2009-cu il bütövlükdə ölkəmiz üçün uğurlu olmuşdur. Keçən ilin yekunlarına görə Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasındadır. Bunu əyani şəkildə göstərmək üçün sadəcə, iqtisadi və sosial sahədə əldə edilən gostəricilərə qısa nəzər yetirmək belə kifayətdir. 2009-cu ildə Azərbaycanda ümumi daxili məhsul 9,3-% artmışdır. Ötən illə müqayisədə sənaye istehsalı 8,6-%, kənd təsərrüfatı 3,5-% çox olmuşdur. Sənayenin inkişafında müəyyən dərəcədə neft amili də vardır. Kənd təsərrüfatının inkişafı sırf onu göstərir ki, Azərbaycanın qeyri-neft sektoru öz müsbət nəticələrini vermişdir. Təbii ki, bu ilk növbədə ölkə rəhbəri möhtərəm cənab İlham Əliyevin apardığı uğurlu siyasətin, gördüyü mühüm işlərin təzahürüdür.

Ölkə başçısının bölgələrə müntəzəm səfərləri dövlət siyasətinin yerlərdə həyata keçirilməsinə effektiv nəzarət mexanizminin tərkib hissəsi, şəxsi idarəçilik nümunəsidir. Xüsusi razılıq hissilə qeyd edim ki, cənab prezident 2009-cu il ərzində ölkənin 15 şəhər və rayonunda 72 obyektin açılışında və təməlqoyma mərasimində iştirak etmişdir. Əvvəlki illərdə olduğu kimi hesabat ilində də ölkəmizin şəhər və rayonlarında Azərbaycan Respublikasının Prezidenti cənab



İlham Əliyevin göstərişi ilə ayrılmış vəsait hesabına nəhəng quruculuq və abadlıq işləri aparılmışdır.

Bu inkişaf və tərəqqini ölkəmizin hər yerində olduğu kimi Astara rayonunun timsalında da görmək mümkündür.

**"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2009-2013-cü illər)" ilə əlaqədar rayonda nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi istiqamətində müəyyən işlər görülmüşdür. 2009-cu ildə çayçılığın, sitrusçuluğun, tərəvəzçiliyin və heyvandarlığın inkişaf etdirilməsi təmin olunmuş, əkin sahələrinə xidmət işləri daha da yaxşılaşdırılmışdır.**

Dövlət Proqramında rayonda emal müəssisələrinin, sosial obyektlərin, 6 ədəd avtomobil körpüsünün tikintisi, 61 km kənd ara və 28 km şəhərdaxili yollarının asfaltlaşdırılması, Astara şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və bərpası işlərinin görülməsi nəzərdə tutulmuşdur.

Rayonda əhalinin işlə təminatı sahəsində böyük uğurlar əldə edilmişdir. Son 6 ildə 4138 yeni iş yeri açılmışdır. Rayonun iqtisadi və sosial sahələrində işləyənlərin orta əmək haqqı əvvəlki illə müqayisədə 15,7-% artaraq 169,1 manata çatmışdır.

İl ərzində rayonda tikinti-abadlıq və quruculuq sahəsində xeyli işlər görülmüşdür. Ümumi sahəsi 7648 kv. m olan yaşayış evləri istifadəyə verilmişdir.

Şəhərin Heydər Əliyev parkında abadlıq işləri davam etdirilmiş, Uşaq Əyləncə Mərkəzi istifadəyə verilmiş, Heydər Əliyev prospekti, Nizami, Azərbaycan və Mirzə Cəbiyev küçələrində səkilərə tamet döşənmiş, yolboyu divarlar hörülmüş, suvaq işləri və yolun asfaltlaşdırılması başa çatdırılmışdır.



Şəhər ərazisində küçələrin əsaslı təmiri və asfaltlaşdırılması ilə əlaqədar Aydın Məmmədov, Mirzə Cəbiyev, Əhəd Muxtar və Qum küçələrində, habelə Seləkəran kəndində bütövlükdə 24600 kv.m yola asfalt döşənmişdir.

Şəhərin Heydər Əliyev prospektində 22, 26 və 28 saylı ictimai yaşayış binalarında əsaslı təmir işləri aparılmışdır. Şəhər mərkəzində FHN-nin Yanğın Təhlükəsizliyi Xidməti üçün yeni inzibati bina tikilib istifadəyə verilmişdir. Olimpiya İdman Kompleksinin tikintisi davam etdirilir. Siyəkü kənd inzibati ərazi dairəsində yerli əhəmiyyətli avtomobil yolunda uzunluğu 8 metr, 2 körpü inşa olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2010-cu ilin "Ekologiya ili" elan olunması ilə əlaqədar rayonda ağac əkini üçün müvafiq yerlərin müəyyənləşdirilməsi, əkiləcək ağacların növünü, onlara aqrotexniki qaydada qulluq göstərilməsini, mühafizəsini nəzərdə tutan tədbirlər planı hazırlanmış və icrasına başlanılmışdır.

Rayonda yaşıllıqların salınması, mühafizəsi, yeni ağac tinglərinin əkilməsi daim diqqət mərkəzindədir. Son dövrlər iməcilik təşkil olunaraq rayonun müxtəlif yaşayış məntəqələrində, yol kənarlarında 7000 ədəd ağac əkilmişdir. Bu iş müntəzəm olaraq davam etdirilir.

Rayonda sahibkarlığın inkişafı ilə əlaqədar bir sıra işlər görülmüşdür. Mövcud problemlərin həlli məqsədilə "Vahid pəncərə" sisteminin tətbiq edilməsi sahibkarlar üçün yeni perspektivlər açmışdır.



Rayonun sahibkarları Bakı şəhərinin ayrı-ayrı rayonlarındakı satış yarmarkalarında fəal iştirak etmiş, il ərzində istehsal etdikləri 682 ton müxtəlif kənd təsərrüfatı məhsullarını yarmarkalarda satışa çıxarmışlar.

Ötən illərlə müqayisədə əhaliyə rabitə xidməti xeyli yüksəkdilmişdir.

Rayonun Pensər və Şiyəkəran kəndlərində ATS-lər yeni elektron ATS-lərlə əvəz edilmişdir.

Rayonda əhalinin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsindən ötrü mövcüd elektrik təsərrüfatının təmiri və yenidən qurulması sahəsində müvafiq tədbirlər görülmüşdür.



Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına əsasən tərtib edilmiş tədbirlər planına uyğun olaraq rayonun Maşxan, Təngərüd, Siyəkü kəndlərinin, Kijəbə qəsəbəsinin qaz təchizatının bərpa edilməsi başa çatdırılmış, Pensər, Kakalos, Kolatan, Şahağacı, Şovaş və digər kəndlərin qazlaşdırılmasına başlanılmışdır.

**Mən jurnalınızın profilinə uyğun olaraq bilərəkdən kənd təsərrüfatı, sənaye, tikinti, nəqliyyat, səhiyyə və s. istehsal və xidmət sahələrində qazanılan uğurların üstündən sükutla keçir, təhsil və mədəniyyət müəssisələrinin fəaliyyətindən daha geniş söhbət açmaq istəyirəm.**

Rayonun ümumtəhsil və məktəbəqədər tədris müəssisələrinin tikintisi, əsaslı təmiri və maddi-texniki bazasının yaxşılaşdırılması sahəsində xeyli iş görülmüşdür. Təkcə bir il ərzində 6 yeni məktəb binasının tikilməsi xüsusi qeyd olunmalıdır. Pensər kənd 2 saylı orta məktəbi üçün 480 yerlik, Rinə kənd orta məktəbi üçün 360 yerlik, Pəlikəş kənd orta məktəbi üçün 240 yerlik, Marzəsəy və Qəcimərdə əsas məktəblər üçün hər biri 180 yerlik, Vovada ibtidai məktəbi üçün 80 yerlik yeni məktəb binaları tikilib istifadəyə verilmişdir.

620 yerlik Kijəbə qəsəbə orta məktəbinin əsaslı təmiri başa çatdırılmış, məktəb inventar və avadanlıqlarla təmin edilmişdir. Bütün bunlar ümumtəhsil məktəblərində təlim-tərbiyənin yüksəlməsinə müsbət təsir göstərmişdir. Bu il ölkənin ali məktəblərinə 126 nəfər astaralı məzun qəbul olunmuşdur ki, bu da ötən illə müqayisədə xeyli çoxdur.

Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə rayon təhsil şöbəsinin əməkdaşı Məmmədov Səfərəli Meybulla oğlu "Tərəqqi" medalına, Astara Pedaqoji Texnikumunun direktoru Həmzəyev Əlihəsən Əli oğlu Respublikanın əməkdar müəllimi fəxri adına layiq görülmüşlər.

Astara Pedaqoji Texnikumunda maddi-texniki bazanın möhkəmləndirilməsi, təhsilin keyfiyyətinin artırılması sahəsində xeyli iş görülmüş, auditoriyalar əsaslı təmir edilmiş, yeni avadanlıqlarla təmin olunmuşdur. Texnikumun ərazisində geniş abadlıq və quruculuq işləri aparılmış, yeni idman meydançaları salınmışdır.




Rayonun mədəniyyət müəssisələri mədəni-kütləvi tədbirlərin keçirilməsini təmin etmişlər. 2009-cu ilin "Uşaq ili" elan edilməsi ilə əlaqədar rayonun mədəni-maarif müəssisələrində, Uşaq Əyləncə Mərkəzində müxtəlif maraqlı tədbirlər həyata keçirilmişdir. Rayon mərkəzində Uşaq kitab bayramının keçirilməsi böyük marağa səbəb olmuşdur. Kakalos kənd mədəniyyət

evinin uşaqlardan ibarət folklor kollektivi Bakı şəhərində "Uşaq ili" çərçivəsində keçirilən "Biz Azərbaycan övladlarıyıq!" uşaq yaradıcılıq festivalının qalibi olmuş, Gənclər və İdman Nazirliyinin, Mədəniyyət və Turizm Nazirliyinin diplom və mükafatlarına layiq görülmüşdür.



Yeniyetmə və gənclərin asudə vaxtlarının təşkili, maraqlar üzrə klubların yaradılması, narkomaniya və digər zərərli vərdişlərə qarşı mübarizə ilə əlaqədar profilaktiki işlərin aparılması sahəsində görülən tədbirlər müsbət nəticələr vermişdir. Gənclərin hərbi vətənpərvərlik tərbiyəsinə diqqət artırılmış, "Cəsurlar" hərbi idman və turizm, "Şahin" hərbi idman oyunlarında uğurlar əldə edilmişdir.

Heydər Əliyev muzey və mərkəzlərinin işinin təkmilləşdirilməsi ilə əlaqədar hazırlanmış konsepsiyaya uyğun olaraq rayonda konkret tədbirlər həyata keçirilmişdir. Ulu öndər Heydər Əliyevin adını daşıyan muzeyin fəaliyyətinin müasir səviyyədə təşkili məqsədilə 2 kompyuter dəsti, diktafon, fotoaparat və digər avadanlıqlar alınmışdır. Muzeydə ziyalılardan ibarət yaradılmış təşviqat qrupunun köməyilə rayonun kəndlərində yaşayan, ümummilli liderlə görüşmüş insanlardan maraqlı xatirələr, unikal fotoşəkillər və H.Əliyevin şəxsi imzası ilə təqdim olunmuş sənədlər toplanılmışdır.

2009-cu il ərzində muzeyə rayonun orta ixtisas və ümumtəhsil məktəblərindən, idarə, müəssisə və təşkilatlardan, şəhər və kəndlərdən 6 min nəfərə yaxın ziyarətçi gəlmişdir. Astaraya 11 dəfə səfər etmiş ümummilli lider Heydər Əliyevin rayon ictimaiyyəti nümayəndələri ilə görüşlərini əks etdirən "Astara Azərbaycanın cənub mirvarisidir" adlı kitabı yüksək poliqrafik üsulla çap edilmiş və geniş yayılmışdır.



Rayonun idarə, müəssisə və təşkilatlarında, şəhər, qəsəbə və kənd icra nümayəndəliklərində vətəndaşların qəbulu, ərizə və şikayətlərə baxılması işinin daha da yaxşılaşdırılması sahəsində xeyli iş görülmüş, onların müraciətlərində qaldırılan məsələlərin vaxtında və obyektiv həlli istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Yerlərdə müntəzəm olaraq keçirilən səyyar qəbullar ictimaiyyət arasında böyük maraq doğurmuş və razılıqla qarşılanmışdır.

**Sonda xüsusi vurğulamaq istəyirəm ki, Astara Rayon İcra Hakimiyyəti Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2009-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasın tələblərindən irəli gələn vəzifələrin həyata keçirilməsi üçün bütün imkanlardan maksimum istifadə edəcək, yol verilmiş nöqsanların aradan qaldırılması üçün konkret, əməli tədbirlər görməklə, rayonun gündən-günə abadlaşdırılması və gözəlləşdirilməsi istiqamətində bütün qüvvələri səfərbər edəcəkdir...**

**Yaşar VƏLİYEV,**
**Şahin FƏRƏMƏZOV**